UOT 91:372.891.373.5

# AZƏRBAYCANLA TÜRKİYƏ ARASINDA TURİZM ƏLAQƏLƏRİNİN MÜASİR VƏZİYYƏTİ VƏ PERSPEKTİVLƏR

**S.Q.HƏSƏNOV**
***Bakı Dövlət Universiteti***
***seymur_h@box.az***

*Azərbaycan və Türkiyə Respublikaları arasında əməkdaşlıq turizm sahəsində də əhatəlidir. Məqalədə hər iki ölkə arasında turizm əlaqələrinin istiqamətləri, turistlərin məqsədi, gedən və gələn turistlərin say dinamikasındakı dəyişikliklər və bunun səbəbi araşdırılmış, daha çox turist cəlb edən bölgələr haqda məlumat verilmişdir.*

**Açar sözlər**: turizm, tranzit tur, turoperator

Azərbaycan Respublikasının Türkiyə ilə turizm sahəsində əməkdaşlığı, 1990-cı illərdən sonra genişlənməyə başlamışdır. Azərbaycanın Türkiyə ilə turizm əlaqələri əvvəllər kommersiya və tanışlıq xarakteri daşıyırdı. Turizm əlaqələrində komersiya turizmi üstünlük təşkil etmişdir ki, bu da Azərbaycandan Türkiyəyə gedənlərin sayının artmasına təsir etmişdir.

Azərbaycanın Türkiyə ilə turizm əlaqələrində əsas istiqamətlər aşağıdakılardır:

− Qarşılıqlı turist hərəkatının təmin olunması;

− Tranzit turlarının təşkili;

−Qarşılıqlı infoturların təşkili;

−Sadələşdirilmiş viza rejiminin tətbiqi və ikiqat vergi firmanın, «torpaqbasdı» haqqının ləğv edilməsi;

−Turizmin müxtəlif növlərinin inkişafında və bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsində təcrübə mübadiləsinin aparılması;

− Turizm sektorunda reklam və təbliğat kampaniyasının aparılmasında əməkdaşlıq;

− Turizm sənayesinin inkişafına maliyyə vəsaitlərinin yönəldilməsi, həmçinin birgə müəssisələrin təşkili, xarici kapitalın qorunması;

− Turizm sektoru üçün mütəxəssis hazırlığında əməkdaşlıq;

− Müntəzəm və Çarter reysləri vasitəsilə turizm əlaqələrinin saxlanılması, həmçinin Azərbaycan vətəndaşlarının Avropa və Afrika ölkələrinə getməsi üçün İstanbul hava limanından tranzit vasitə kimi istifadə etməsi.

Azərbaycandan Türkiyəyə gedən turistlərin 1992-ci ildən başlayaraq qeydiyyatı aparılmış və onların məqsədinə görə qruplaşdırılması isə l997-ci ilə təsadüf edir. 1992-ci ildə Türkiyəyə gedən turistlərin sayı 120 minə çatdığı halda, 2009-cu ildə bu rəqəm 527,2 minə çatmışdır.

Türkiyəyə gedən azərbaycanlı turistlərin əksəriyyəti orta və yüksək gəlirli sosial təbəqəyə aid olanlardır. Türkiyəyə turizm məqsədilə gedən azərbaycanlı turistlərin sayı son illər artmışdır.

Azərbaycanlıların Türkiyəyə səfərləri məqsədinə görə qruplaşdırdıqda illər üzrə fərqlər aydın nəzərə çarpır. Belə ki, 1990-1995-ci illərdə Türkiyəyə gedən azərbaycanlı turistlərin əsas hissəsi kommersiya, biznes məqsədli olmuşlar. 1995-ci ildə aparılan hesablamalarda göstərilir ki, azərbaycanlı turistlərin 48,6%-i biznes və kommersiya məqsədilə gedənlərdən ibarət olmuşdur [ 4].

1996-cı ildən başlayaraq Azərbaycandan Türkiyəyə gedən turistlərin sayında dəyişiklik baş vermiş, ekskursiya və turizm məqsədilə gedənlərin sayı artmışdır. Türkiyəyə gələn xarici turistlərin təhlilindən aydın olur ki, ekskursiya və turizm məqsədilə gələnlər ümumi turist axınının 50%-dən çoxunu təşkil edir. Bu baxımdan azərbaycanlı turistlərin də Türkiyəyə səfərlərindən əsas məqsədləri istirahət, ekskursiya və turizmin digər növləri ilə bağlıdır. 2009-cu ildə Türkiyəyə səfər edən azərbaycanlı turistlərin 38,6%-i istirahət və ekskursiya məqsədli olmuşdur [5].

Apardığımız araşdırmalar göstərir ki, 1998-cı ildən sonra Türkiyəyə gedən azərbaycanlı turistlər arasında istirahət, əyləncə, müalicə və sağlamlıq, şoppinq məqsədli olanların sayı artmışdır. 1998-ci ildə ekskursiya, istirahət, turizm məqsədilə gedənlər 23,8% şoppinq məqsədli 24,2% təşkil etdiyi halda, bu göstərici 2004-ci ildə müvafiq olaraq 28,4% və 21,3% olmuşdur. Biznes məqsədli turlar isə 1998-ci ildə 20,3% dən, 2004-cü ildə 13,5%-ə qədər azalmışdır.

2008-ci ildə Türkiyəyə gedən azərbaycanlı turistlərin məqsədinə görə təhlili göstərir ki, ekskursiya, istirahət, turizm məqsədli 38,6%, şoppinq 14,3%, biznes və kommersiya məqsədli 16,2%, infotur və fərdi turlar 14,8%, digər məqsədli turlar isə 16,1% təşkil etmişdir [ 4]. .

Yuxarıda qeyd olunan statistik rəqəmlərin təhlilindən aydın olur ki, azərbaycanlı turistlər arasında istirahət məqsədilə Türkiyəyə gedənlərin sayının artması ölkə vətəndaşlarının sosial-iqtisadi vəziyyətinin yaxşılaşması ilə yanaşı, Türkiyədəki turizm xidmətlərinin nisbətən ucuz başa gəlməsi, həm də Avropanın digər Aralıq dənizi ölkələrinin təqdim etdiyi eyni xidmətdən ucuz olmasıdır.

Onu da qeyd edək ki, Türkiyədə xarici turistlərə yönəldilən xidmətlərin orta dəyəri 40-65 şərti vahid arasında dəyişir ki, bunun da 22,1%-i qidalanma, yerləşmə, digər turizm xidmətləri isə 11,6% təşkil edir. Bu baxımdan Tür-

kiyəyə gedən azərbaycanlı turistlər də turist tipli otellərdə qalmaqla, hər gün üçün 30-50 şərti vahid ödəməklə tam pansion xidmətindən istifadə edə bilir.

Azərbaycanlı turistlərin Türkiyəyə mövsümlər üzrə səfərlərində iyul, avqust ayları ən intensiv dövr sayılır. Belə ki, yanvar, fevral aylarında turistlərin sayı 25-30 min nəfərə çatdığı halda, aprel, may, iyun aylarında 30-35 min, iyul, avqust aylarında isə 40-48 min nəfər təşkil edir. Türkiyədə qış turizm mövsümündə (noyabr, dekabr, yanvar) azərbaycanlı turistlərin də səfərlərində nisbətən intensivlik müşahidə edilir. Bəzən qış mövsümündə Türkiyəyə gedən azəbaycanlı turistlərin sayı 40 min nəfərdən çox olur.

Azərbaycanlı turistlərin Türkiyənin bölgələri üzrə səfərlərinin coğrafiyasında da fərqlər vardır. İstanbulla yanaşı, Aralıq, Egey dənizi sahili turizm mərkəzlərinə gələnlər üstünlük təşkil edir. Azərbaycanlı turistlərin 28,7%-i Aralıq dənizi sahili, 16,6%-i Egey dənizi sahili, 18,1%-i İstanbul və onun ətrafında olan Mərmərə bölgəsinə, 36,6%-i isə digər turizim mərkəzlərinə istiqamətlənmişlər. Azərbaycanlı turistlərdən Aralıq və Egey dənizi sahillərinə gedənlərin sayının artması turizim məqsədli olanların çoxalmasının əsas göstəricilərindən biridir. İstanbul bölgəsinə turizm axınlarında üstünlüyünü saxlaması biznes və konfrans turizminin inkişafı ilə bağlıdır (3). Belə ki, Türkiyəyə gedən azərbaycanlı turistlərin arasında sosial tərkibinə görə iş adamları və biznesmenlər nisbətən üstünlük təşkil edir.

Azərbaycana gələn Türkiyəli turistlərin say dinamikasında son illər baş verən dəyişiklik biznes məqsədilə yanaşı, istirahət və ekskursiyaya gələnlərin sayını artırmışdır. Onu da qeyd edək ki, Türkiyədən Azərbaycana gələn turistlərin sosial seqmentində biznesmenlər, iş adamları üstünlük təşkil edir. Türkiyəli turistlər əsasən Bakı və Abşeronun digər rayonlarına səfər edirlər.

Ölkədə xarici turistlərə göstərilmiş xidmətlər arasında Türkiyə vətəndaşları Rusiya, İran, Gürcüstan vətəndaşlarından sonra 4-cü yeri tutur. Bu göstərici illər üzrə turistlərin dinamikasından asılı olaraq dəyişmişdir.

Onu da qeyd edək ki, turizm xidmətindən istifadə edən xarici ölkə vətəndaşlarının sayı yerləşmə müəssisələrinin məlumatı əsasında aparılır. Bu baxımdan 2002-ci ildə yerləşmə müəssisələrində xidmət göstərilmiş Türkiyə vətəndaşlarının sayı 2343 nəfər təşkil etmişdir. 2008-ci ildə yerləşmə müəssisələrindən xarici ölkə vətəndaşlarından istifadə edənlərin sayı 62920 nəfər olmuşdur. Buna görə də xarici turistlər arasında türkiyəli turistlərin payı 12,2% təşkil etmişdir. Bu göstəricinin Türkiyə ilə Azərbaycan arasında turizm əlaqəsi baxımından az olması respublikamıza gələn Türkiyə vətəndaşlarının əsasən biznes, işgüzar məqsədli və onların ölkədə uzun müddət qalması ilə əlaqədar ev kirayələməsi və ya icarəyə götürülmüş ev tipli yerləşmə obyektlərindən istifadə etməsidir. Onu da qeyd edək ki, 2008-ci ildə Azərbaycana turizm məqsədilə gələn turistlərin sayı 7881 nəfər olmuşdur ki, bunların da tur günlərinin sayı 37164 günə çatmışdır. Bu göstərici 2006-cı illə müqayisədə 2 dəfədən çox artım deməkdir.

Respublikamızda beynəlxalq turist axınlarının təhlilində xarici ölkə vətəndaşlarının Azərbaycana gəlişi və gedişi arasında fərqlər mövcuddur. Bu göstərici Türkiyədən Azərbaycana gələn və gedən turistlər, həmçinin digər vətəndaşlar arasında kəskin fərq yaradır.

Belə ki, 2008-ci ildə dövlət sərhədlərində Türkiyəyə getmək istəyən və oradan Azərbaycana gələn Türkiyə vətəndaşların sayı 212260 nəfər təşkil etmişdir. Bunun da 112300 nəfəri Azərbaycana gələnlər, 99960 nəfəri isə Türkiyəyə gedənlər olmuşdur.

Azərbaycan Respublikası Dövlət Statistika komitəsinin, Mədəniyyət və Turizm Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin verdiyi məlumatlar arasında ziddiyyət vardır. Belə ki, statistik məlumatlarda Türkiyədən gələn turistlərin 8000 nəfərə qədər olduğu göstərildiyi halda, Mədəniyyət və Turizm Nazirliyinin informasiyasında bu rəqəmin 200 mindən çox olduğu qeyd olunur. Dövlət sərhəd xidmətinin məlumatlarında isə Türkiyədən Azərbaycana gələn turist və qeyri-turistlərin sayının 110 min nəfərdən çox olduğu göstərilir [4].

Araşdırmalar göstərir ki, Azərbaycanda turizm statistikasının tam formalaşması ölkəyə daxil olan xarici turistlərin qeydiyyatının düzgün aparılması ilə bağlıdır. Bu isə Türkiyədən ölkəmizə daxil olan turistlərin sayını dəqiq müəyyənləşdirməyə imkan vermir.

Statistik məlumatların təhlili göstərir ki, Türkiyədən ölkəmizə gələn turistlərin əsas hissəsi işgüzar məqsədli olur. Bu, Azərbaycanda xarici turizm üçün səciyyəvi hal sayılır. Azərbaycana gələn turistlərin əsas hissəsinin Bakıya istiqamətlənməsi isə paytaxtın biznes mərkəzi kimi formalaşması ilə bağlıdır. Türkiyəli turistlərin bölgələrə səfəri əsasən tanışlıq məqsədilədir. Bəzi hallarda isə bölgələrə istirahət və turizm məqsədilə gedənlər də müşahidə edilir.

Türkiyənin Azərbaycanla turizm əlaqələrində tranzit turların təşkili də öz əhəmiyyətinə görə seçilir. Sabiq sovet dövründə mövcud tranzit turlar Mərkəzi Asiya, Rusiyanın mərkəzi regionlarından başlayaraq, Azərbaycan da daxil olmaqla Türkiyəyə tranzit turlar təşkil olunmuşdu. Belə tranzit turlardan biri Daşkənd, Səmərqənd, Həştərxan, Bakı, Tbilisi, İstanbul istiqamətində fəaliyyət göstərirdi.

Azərbaycan müstəqillik qazandıqdan sonra mövcud olan tranzit turlar öz əhəmiyytini itirsə də, son dövrlər turizmin bu növünə maraq artmışdır. Tranzit turların təşkili ölkələrin mövcud turizm təşkilatlarının qarşılıqlı infoturları formasında həyata keçirilməyə başlanmışdır. Tranzit turların təşkili əvvəlcə Naxçıvan da daxil olmaqla Türkiyədən gələn turistlərin Mərkəzi Asiyaya istiqamətlənməsinə şərait yarada bilər. Son illər isə Azərbaycan, Gürcüstan və Türkiyənin bölgələrinin idarəetmə orqanlarının, həmçinin müvafiq nazirliklərin dəstəyi ilə tranzit turların təşkilinə başlanılmışdır.

Belə tranzit turlara misal olaraq 2006-cı ildə start götürən «Babaların zəfər yolu», «Aleksandr Dümanın keçdiyi yol» və s. qeyd etmək olar. Bununla yanaşı, Mərkəzi Asiyadan Türkiyəyə getmək istəyən qrup şəklində olan tranzit turların təşkilində Azərbaycan fəal rol oynayır. Mərkəzi Asiyadan Türkiyəyə

qrup şəklində gedən turistlərin Azərbaycan ərazisindən istifadə etməsi, ölkənin turizm potensialının tanıdılmasına imkan verir. Belə tranzit turlar Azərbaycanın şimal-qərb turizm marşrutu üzrə həyata keçirilir. Buna görə də ölkənin şimal-qərbində yerləşən Şamaxı, İsmayıllı, Qəbələ, Şəki, Zaqatala, Balakəndə olan turizm mərkəzləri haqqında məlumat əldə etmiş olurlar. Onu da qeyd edək ki, belə tranzit turlarda iştirak edən turistlər Şəki-Zaqatala bölgəsinin turizm mərkəzləri olan Lahıc, Baskal və Şəkinin memarlıq abidələrinə maraq göstə bilərlər.

Tranzit turların təşkili kütləvi olmasa da, gələcəkdə Türkiyə və Azərbaycan arasındakı turizm əlaqələrində əhəmiyyətli rol oynayacaqdır. Buna görə də ölkənin turizm şirkətləri Orta Asiya, Yaponiya ilə turizm əlaqələrini genişləndirməklə tranzit turların sayını artırmış olar. Bu da ölkənin tranzit potensialının artırılması ilə yanaşı, əlavə gəlir əldə etməyə, mövcud turizm marşrutlarından istifadə edənlərin sayının artırılmasına imkan verə bilər.

Tranzit turların artırılmasının Türkiyə və Azərbaycan baxımından əhəmiyyətini aşağıdakı kimi qruplaşdırmaq olar:

– ölkələrin turizm potensialının təbliğinə və tanıdılmasına imkan verir;

– Qrup şəklində təşkil olunmuş turların sayını artırır ki, bu da turizm firmalarına və bölgələrdə yerləşən turizm obyektlərinə əlavə qazanc əldə etməyə imkan verir;

–Qrup şəklində təşkil olunan turların artması, ekoloji, dərketmə, etnik turların genişlənməsinə imkan verir ki, bu da Mərkəzi Asiya və Azərbaycan üçün artıq ənənəvi olan işgüzar turların, turizmin müxtəlif növləri ilə əvəz olunmasına imkan verir;

–Tranzit turlar Azərbaycanın qərb və şimal-qərb turist marşrutlarının canlanmasına şərait yarada bilər. Bu da bölgələrdə turizm infrastrukturunun bərpasına, yerləşmə müəssisələrindən istifadə edənlərin sayının artmasına səbəb ola bilər.

– Mərkəzi Asiya, Azərbaycan, Gürcüstan, Türkiyə arasında qarşılıqlı infoturların təşkilinə imkan verə bilər.

Azərbaycanla Türkiyə arasında qarşılıqlı infoturların təşkili hər iki ölkənin turizm təşkilatları tərəfindən müntəzəm olaraq həyata keçirilir. Bunlar müxtəlif təşkilatları və sosial təbəqələri əhatə edir. Belə qarşılıqlı infoturların təşkili ilk olaraq Türkiyə Sənaye Agentlikləri Birliyi təşkilatı (TSAB) tərəfindən 1997-ci ildən başlayaraq həyata keçirildi. Əvvəllər infoturların təşkili qarşılıqlı tələbə mübadiləsindən ibarət olsa da, sonradan cəmiyyətin müxtəlif təbəqələrini əhatə etməyə başlamışdır.

TSAB təşkil etdiyi infoturlar Türkiyənin turizm mərkəzlərinin tanıdılmasına yönəldilmişdir. Bu məqsədlə azərbaycanlı tələbələrdən ibarət böyük bir qrupun yay mövsümündə Türkiyədə təcrübə keçməsinə şərait yaradılmış, həmçinin ölkənin ayrı-ayrı bölgələrinə turist səfərləri təşkil etmişdir. Bununla yanaşı TSAB təşkilatı azərbaycanlı tələbələrin otellərdə təcrübə keçməsi ilə yanaşı onların mövsümi işlərlə təmin olunmasına şərait yaratmışdır.

TSAB-in təşkil etdiyi belə infoturlar sonradan genişlənərək, digər turizm təşkilatları və dövlət orqanları tərəfindən qarşılıqlı şəkildə həyata keçirilməyə başlanılmışdır. İnfoturların təşkili ölkələr arasında turizm əlaqələrinin genişlənməsinə, qarşılıqlı turist mübadiləsinin artmasına imkan verir.

İnfoturların təşkili nəticəsində turist şirkətləri arasında münasibətlərin inkişafına da təkan vermişdir. Belə ki, turist mübadilələri və turizm şirkətlərində idarəetmənin öyrənilməsində mühüm rol oynayır. Xüsusilə yeni yaradılan turizm şirkətlərinin təşkilində Türkiyə firmalarının təcrübəsindən geniş istifadə olunur.

1990-cı illərin ortalarından sonra Azərbaycandan Türkiyəyə gedən Türkiyə tərəfindən Azərbaycan turizm şirkətləri üçün təklif olunan infoturlar onların iş təcrübəsinin öyrənilməsində əhəmiyyətli rol oynayır. Bu məqsədli infoturlar 1997-ci ildən başlayaraq hər il həyata keçirilir.

Azərbaycanla Türkiyə arasında turistlərin vizasız gediş-gəlişinin təmin olunması 1992-ci ildə imzalanmış dostluq və əməkdaşlıq haqqındakı müqavilədə öz əksini tapır. Vizasız gediş-gəliş əvvəlcə Naxçıvan bölgəsinə aid olunsa da, sonradan bu, bütün ölkə vətəndaşlarına şamil olundu.

Onu da qeyd edək ki, sadələşdirilmiş viza rejiminin tətbiqi iki ölkə arasında turist axınlarının intensivləşməsinə təkan verdi. Həmçinin tranzit turların həyata keçirilməsində sadələşdirilmiş viza rejiminin tətbiqi əhəmiyyətli rol oynamışdır. Bu, istər İpək yolu, istərsə də Azərbaycan, Gürcüstan və Türkiyə arasında turist daşınmalarının artmasına imkan vermişdir.

Vizasız gediş-gəlişin tətbiqi, sadələşdirilmiş rəsmiyyətçilik nəticəsində 1995-ci ildə Türkiyəyə gedənlərin sayı 38,2 minə çatdığı halda bu rəqəm 1998-ci ildə 120 min nəfəri keçmişdir. Onu da qeyd edək ki, mövsüm dövründə Azərbaycandan Türkiyəyə gedənlərin sayı ay ərzində 45-50 min nəfərdən çox olur. Qeyd edək ki, 2009-cu ilin avqustunda Türkiyəyə gedən turistlərin sayı 56,1 min nəfər olmuşdur. Bu rəqəm 2008-ci ilin eyni ayı ilə müqayisədə 3,6% artım deməkdir. Bu göstəricini 1997-ci ilin eyni ayı ilə müqayisə etsək, artımın 3 dəfədən çox olduğunu görə bilərik.

Turizm sahəsində ölkələr arasında mühüm əlaqələrdən biri də «torpaq basdı» vergisinin ləğv olunmasıdır. Hazırda Azərbaycanla Türkiyə arasında «torpaqbasdı» ödənilməsinin aparılması qarşılıqlı olaraq ləğv olunsa da, Azərbaycan tərəfi Türkiyədən gələn turistlərdən «torpaqbasdı» vergisi alır. Buna baxmayaraq, Azərbaycandan Türkiyəyə gedən turistlər heç bir «torpaqbasdı» vergisi ödəmir.

Onu da qeyd edək ki, «torpaqbasdı» vergisinin ödənilməməsi azərbaycanlı turistlərin Avropa ölkələrinə səyahəti zamanı Türkiyədən tranzit ölkə kimi daha çox istisfadə etməsinə imkan verir. Azərbaycanla Türkiyə hökuməti arasında imzalanmış müqaviləyə görə, hər iki ölkədə fəlaliyyət göstərən sahibkarlıq subyekləri ikiqat vergi tutmadan azad edilmişdir. Sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması ölkələr arasında kapital qoyuluşunun

artırılmasına təkan vermişdir. Bununla yanaşı, azərbacanlı iş adamlarının da Türkiyənin turizm bazarına kapital qoyuluşu artmışdır.

Turizm sektorunda reklam və təbliğatın aparılmasında ölkələr arasında qarşılıqlı əməkdaşlıq mövcuddur. Bu əməkdaşlıq müxtəlif turizm sahələrini əhatə edir. Reklamın ilk istiqaməti olaraq qarşılıqlı turist axınlarının təmin olunması üçün aparılan təbliğatdan ibarət olmuşdur [2]. Belə ki, Türkiyə və Azərbaycanda turist şirkətlərinin, xüsusilə istirahət mərkəzlərinin və yerləşmə müəssisələrinin reklamı geniş yayılmışdır. Azərbaycanda Türkiyənin istirahət mərkəzlərinin daha çox təbliğ olunmasına baxmayaraq, ölkəmizin də yüksək nailiyyət qazanmış turizm şirkətləri Türkiyədə geniş təbliğ olunmağa başlanmışdır. Türkiyənin turizm mərkəzlərinin və yerləşmə müəssisələrinin ölkəmizdə təbliğ olunması, xarici ölkələrin turizm mərkəzlərinin reklamı arasında birinci yeri tutur. Bu, həm yay, həm də qış turizm mövsümü üçün səciyyəvidir.

Hazırda Türkiyə ilə Azərbaycan arasında turizm marketinqi və reklamı istiqamətində əməkdaşlıq aparılsa da, bu ölkənin firmalarının, yerləşmə mərkəzlərinin ölkəmizdə müxtəlif səviyyələrdə təbliğatı üstünlük təşkil edir. Beynəlxalq miqyasda aparılan marketinq fəaliyyətində isə sərgilərdə birgə iştirakı, müxtəlif Avropa ölkələrində keçirilən turizm tədbirlərində Azərbaycandan turizm firmalarının cəlb edilməsi üstünlük təşkil edir. Apardığımız araşdırmalar göstər ki, Azərbaycanla Türkiyə arasında reklam sahəsində əməkdaşlıq qənaətbəxş deyildir. Bu, Azərbaycanın turizm sektorunda reklamın zəif olunması və beynəlxalq miqyasda marketinq fəaliyyətinin aparılması ilə bağlıdır.

Azərbaycanla Türkiyə arasında turizm sahəsində əməkdaşlığın mühüm istiqamətlərindən biri də, birgə müəssələrin təşkili ilə bağlıdır. Türkiyə iş adamlarının Azərbaycanın turizm sektoruna yönəltdiyi vəsaitlər, iqtisadiyyatın digər sahələrinə nisbətən aşağıdır. Rəsmi məlumatlara görə ölkə iqtisadiyyatına Türkiyənin iş adamlarının qoyduğu vəsait il ərzində 1,2-1,5 milyard ABŞ dolları təşkil edir ki, bu göstəriciyə görə Azərbaycana yönəldilən xarici vəsaitlərin neft sektorunda aparıcı rol oynadığına görə geri qalır. Bu vəsaitlərin əsas hissəsi qeyri-neft sektoruna yönəldilir. Bununla yanaşı, yönəldilən vəsaitlərin sahələrə görə bölgüsündə xidmət və emal müəssisələrinin təşkili əsas yer tutur.

Xidmət sahəsinə yönəldilən kapitalın əsas hissəsi ticarət, birgə müəssisələrin təşkili, yeni xidmət sahələrinin yaradılması və s. ölkələr arasında investisiya istiqamətləri üstünlük təşkil edir. Xidmət sahələri arasında turizm sahəsinə yönəldilən kapital miqdarı haqqında rəsmi məlumatlar çox az olsa da, bunun çox hissəsinin yerləşmə müəssisələrinin tikintisinə istiqamətlənməsi özünü büruzə verir.

Türkiyə iş adamlarının yerləşmə müəssisələrinə yönəltdiyi kapitalın əsas hissəsi Avropa şirkətləri ilə birlikdə lahiyələrin həyata kecirilməsi ilə bağlıdır. Buna görə də, ölkədə fəaliyyət göstərən 5 ulduzlu otellərin və biznes mərkəzlərinin tikintisində, idarə olunmasında Türkiyənin transmilli şirkətlərinin də iştirakı vardır. Bu iştirak maliyyə vəsaitlərinin yönəldilməsi ilə yanaşı, tikintinin aparılması, transmilli otellərin yönəltdiyi maliyyə vəsaitləri hesabına

otellərin müasirləşdirilməsini və s. qeyd etmək olar. Araşdırmalardan məlum olur ki, ölkədə beynəlxalq transmilli otellərin yerləşmə müəssisələrinin tikintisində Türkiyə şirkətlərinin payı 50-75% olmuşdur.

Ölkədə Türkiyə şirkətlərinin fəaliyyəti ilə bağlı olaraq digər yerləşmə müəssisələrinə yönəldilən vəsaitlər azlıq təşkil edir. Yalnız dövlətin birbaşa dəstək verdiyi turizm obyektlərinin tikintisində və idarə olunmasında türk şirkətləri iştirak edir. Misal olaraq respublikamızın Qusar rayonunda tikintisinin aparıldığı qış idman kompleksinin, Bakıda H.Əliyev adına mərkəzin tikintisində türk şirkətləri də fəal rol oynayır. Onu da qeyd edək ki, regionlarda olimpiya komplekslərinin, istirahət mərkəzlərinin tikintisində türk şirkətləri fəallıq göstərir. Türkiyə ilə Azərbaycan arasında turizm sahəsində birgə müəssisələrin təşkili haqqında məlumat çox azdır. Araşdırmalar göstərir ki, türkiyəli iş adamlarının respublikamızda turizm şirkəti təşkil etmək üçün geniş maraq dairəsi yoxdur. Onlar daha çox Azərbaycan vətəndaşları adına turizm şirkətləri təşkil edirlər ki, bunlar da türk kapitalı hesabına fəaliyyət göstərir. Bununla yanaşı, türk şirkətləri daha çox passiv turizmlə məşğul olan şirkətlərin təşkilində maraqlıdırlar. Bunlar da Azərbaycandan Türkiyəyə turist göndərməklə məşğul olurlar.

Türkiyənin iri turoperator və turagentliklərinin, transmilli otellərinin ölkəmizdə sahibkarlıq fəaliyyəti ilə məşğul olması və bu sahəyə vəsait yönəltməsi yüksək səviyyədə deyildir. Bu da Azərbaycanda turizm sənayesinin Avropa ölkələrinə nisbətən zəif inkişafı ilə bağlıdır. Respublikamıza Türkiyənin iri turizm şirkətlərinin, transmilli otellərinin cəlb olunması ölkəmizdə turizm sektorlarının canlanmasına, yerləşmə müəssisələrində avropa standartlarının tətbiqinə və bölgələrdə istirahət müəssisələrinin genişlənməsinə imkan yarada bilər.

## ƏDƏBİYYAT

1. Hayati Doğanay. Türkiye turizm coğrafiyası. Erzurum: 2002, 624 s.
2. Hayati Doğanay. Türkiye ekonomik coğrafiyası. Erzurum: 1998, 644 s.
3. Özcan Yağcı. Turizm ekonomisi. Ankara: 2007, 210 s.
4. Azərbaycanın turizm statistikası. Bakı: 2009, 144 s.
5.Türkiye turizm statisi. Ankara Kültür ve turizm Bakanlığı, 2009, 286 s.

## СОВРЕМЕННОЕ СОСТОЯНИЕ И ПЕРСПЕКТИВЫ ТУРИСТСКИХ ОТНОШЕНИЙ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ТУРЦИЕЙ

С.Г. ГАСАНОВ

### РЕЗЮМЕ

Сотрудничество между Азербайджаном и Турцией в области туризма также являются обширными. В статье показаны направления в туризме, цель туристов, происходящие изменения в динамике туристских прибытий и отбытий, а также их причины. Приводятся данные о регионах принимающих большое количество туристов.

**Ключевые слова**: туризм, транзиттур, туроператор

# CURRENT STATUS AND PROSPECTS OF TOURISTIC RELATIONS BETWEEN AZERBAIJAN AND TURKEY

**S.G.HASANOV**

## SUMMARY

Cooperation of Azerbaijan and Turkey in the tourism industry is extensive. The article elucidates lines of advance in tourism, tourists' goals, the changes in the dynamics of tourist comings and goings and their causes.

**Key words:** tourism, transit tour, touroperator

*Redaksiyaya daxil oldu: 10.03.2011-ci il*
*Çapa imzalandı: 27.05.2011-ci il.*